# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# S Ə R Ə N C A M I

**Bakı şəhəri** **№1/10** **31 mart 2020-ci il**

**Koronavirus (COVID-19) infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın 2020-ci il 30 mart tarixli məlumatına uyğun olaraq, Azərbaycan Respublikasının Auditorlar Palatasının üzərinə düşən vəzifələrin yerinə yetirilməsi barədə**

Koronavirus (COVID-19) infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın 2020-ci il 30 mart tarixli məlumatına uyğun olaraq, Azərbaycan Respublikasının Auditorlar Palatasının üzərinə düşən vəzifələrin yerinə yetirilməsi məqsədilə **qərara alıram:**

1. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tövsiyə edilsin ki, auditor xidməti göstərilməsinə dair sifarişçilərlə bağlanılmış müqavilələrdə nəzərdə tutulmuş işlərin başa çatma müddəti karantin dövrünə təsadüf etdiyi hallarda həmin müqavilələrin icra müddətinin uzadılması üçün zəruri tədbirlərin görülməsini təmin etsinlər.

2. Azərbaycan Respublikası Auditorlar Palatasının 2020-ci il üzrə iş planında icrası karantin dövrünə təsadüf edən bəndlərin yerinə yetirilməsi müddəti bir ay uzadılsın.

3. Auditorlar Palatasının İmtahan Komissiyası tərəfindən keçirilməsi nəzərdə tutulmuş auditor adı almaq üçün imtahanlar ilə əlaqədar tələb olunan sənədlərin Palataya təqdim olunma müddəti 2020-ci il 01 iyul tarixinədək uzadılsın.

4. Auditorlar Palatasının əməkdaşlarının vəzifə və öhdəliklərinin yerinə yetirilməsinin təmin edilməsi məqsədilə Palatada distant iş rejimi tətbiq edilsin.

5. Maliyyə təminatı və xarici əlaqələr idarəsinə (V.Rəhimov, N.İsmayılov) tapşırılsın ki, vəzifələrini distant olaraq evdən icra edən Auditorlar Palatasının əməkdaşlarına Palatanın maddi-texniki bazasından istifadə edilməklə zəruri şəraitin yaradılması təmin edilsin.

6. Bu sərəncamın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Palatanın sədri** **Vahid Novruzov**